# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 338** **Bakı şəhəri, 2 avqust 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 iyul tarixli 143 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyə yardımı və ya investisiyayönümlü təxsisat alan, habelə dövlət zəmanəti ilə alınmış borc da daxil olmaqla, dövlət büdcəsi qarşısında öhdəliyi olan hüquqi şəxslərin xarici və ya daxili borclanmasını tənzimləyən Qaydalar"da dəyişiklik edilməsi haqqında**

"Kredit büroları haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 384-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1145 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 iyul tarixli 143 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 708; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955, № 8, maddə 1449, № 10, maddə 1743, № 11, maddə 1921; 2017, № 5, maddə 985) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən maliyyə yardımı və ya investisiyayönümlü təxsisat alan, habelə dövlət zəmanəti ilə alınmış borc da daxil olmaqla, dövlət büdcəsi qarşısında öhdəliyi olan hüquqi şəxslərin xarici və ya daxili borclanmasını tənzimləyən Qaydalar"ın 4.2.5-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.2.5. kredit bürosundan benefisiara aid kredit hesabatı, həmçinin benefisiarın kredit hesabatında əksini tapmayan digər borcları haqqında məlumat.".

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***